AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNİN DƏVƏDƏLLƏYİLƏRİ (Mantodea) VƏ TORQANADLI HƏŞƏRATLARI (NEUROPTERA)

İlhamə Kərimova, Zinyət Şahverdiyeva

AMEA-nın Zoologiya İnstitutu

Dəvədəlləyilər (Mantodea) və torqanadlılar (Neuroptera) Xəzər dənizinin sahillərindən tutmuş, təqribən 3000 metrə qədər hündürlüyədək ərazilər də daxil olmaqla Azərbaycanın demək olar ki, hər yerində yayılmışdır. Respublikada hər iki dəstənin nümayəndələrinin qeydə alınması üzrə işlər XX əsrin əvvəllərində başlanmışdır. Bu dövrlərdə Azərbaycan da daxil olmaqla Cənubi Qafqazda entomoloji tədqiqatlar əsas etibarilə Rusiya entomoloqları tərəfindən aparılmışdır.

Gürcüstan Milli muzeyində apardığımız tədqiqatlar göstərmişdir ki, Qarabağ ərazisində hər iki dəstə üzrə material toplanışı ilə əsasən rus entomoloqları Konstantin Satunin, Aleksey Vasilinin və Danimarka entomoloqu Peter Esben-Petersen məşğul olmuşlar. K.Satunin 1912-1913-cü illərdə əsasən Füzuli rayonunun Şahçinar və Aslandüz ərazilərində tədqiqat aparmışdır. Həmin dövrdə onun tərəfindən 14.VII.1913 tarixində Aslandüz ərazisindən *Bolivaria brachyptera* (Pallas, 1773) növünün 1 fərdi, Şuşa ərazisindən 12.VII.1906 tarixində isə naməlum tədqiqatçı tərəfindən 1 ədəd *Empusa fasciata* Brullé, 1832 növü qeydə alınmışdır. Sonrakı tədqiqatlar bizim tərəfimizdən 2015-2017-ci illərdə Füzuli rayonu ərazisində aparılmış və 10.VII.2015 tarixində *Armene* sp., 25.III.2016 tarixində *Hierodula transcaucasica* Brunner von Wattenwyl, 1878 və 19.VII.2017 tarixində isə *B.brachyptera* qeydə alınmışdır.

K.Satunin tərəfindən Qarabağda qarışqa aslanları üzrə material toplanışı əsasən 05.VI-01-14.VII.1912-ci il tarixlərini əhatə etmişdir. O, Füzuli rayonunun Araz çayı boyunca Şahçinar ərazisində *Cueta anomala* Navás, 1915 növünün 4 dişi və 1 erkək fərdini, *Creoleon plumbeus* (Olivier, 1811) növünün 1 dişi və 2 erkək fərdini, Cəbrayıl rayonundan həmin növün 1 dişi fərdini, Füzuli rayonunun Aslandüz ərazisindən *Palpares libelluloides* (Linnaeus, 1764) növünün 2 erkək və 2 dişi fərdini, *Myrmecaelurus trigrammus* (Pallas, 1781) növünün Şahçinar ərazisindən 1 dişi fərdini, Cəbrayıl rayonu ərazisindən isə 1 erkək fərdini qeydə almışdır. Həmin ərazidən A.Vasilinin tərəfindən 29.VI.1912 tarixində *Distoleon tetragrammicus* (Fabricius, 1798) növünün 1 dişi fərdi qeyd edilmişdir. Askalaflar fəsiləsinin yalnız bir növü *Deleproctophylla variegata* (*Klug, 1845*) 1908-ci ilin may ayında Qarabağın Çanağa ərazisindən İsveç alimi Esben Petersen tərəfindən qeydə alınmışdır. Torqanadlıların Nemopteridae fəsiləsinə aid *Nemoptera sinuata* Olivier, 1811 növü X.Ə.Əliyev tərəfindən Zəngilan rayonu Vejnəli kəndində 23.VII.1978l tarixində qeydə alınmışdır.

Qarabağın qarışqa aslanları və askalaf faunası üzərində müasir tədqiqatlar bizim tərəfimizdən 2015-ci ildə Füzuli rayonunun Horadiz qəsəbəsini əhatə etmiş, bu ərazidən 3 qarışqa aslanı (*P.libelluloides, D.tetragrammicus, Myrmecaelurus solaris* Krivokhatsky, 2002) və bir askalaf (*Bubopsis hamatus* (Klug, 1834)) qeydə alınmışdır.

Tədqiqatlarımıza qədər qeydə alınmış dəvədəlləyilər və torqanadlıların işğaldan azad olunmuş ərazilərdə populyasiyalarının vəziyyətini müəyyənləşdirmək üçün təkrar tədqiqatların aparılması vacibdir. Bu ərazilərdə Palpares turcicus, məhz Zəngilan ərazisində isə *Lertha extensa* (Oliver, 1811), *Lertha ledereri* (Sélys-Longchamps, 1866)) və *Lertha sheppardi* (Kirby, 1904) sapqanadlılarının olması gözlənilir. Şuşada nadir empuza növü olan *E.fasciata*-nın populyasiyasının müasir vəziyyəti öyrənilməlidir. Monitorinqlər aparılmalı, alınmış nəticələr işğalaqədərki nəticələrlə müqayisə edilib növlərin vəziyyəti qiymətləndirilməlidir. Azərbaycanın dəvədəlləyilər və torqanadlılar faunası barədə tam dolğun məlumatın əldə edilməsi üçün işğaldan azad edilmiş ərazilərdə tədqiqatların aparılması zəruridir.